Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Xalqa həsr edilmiş həyat

**Bakı-2017**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Xalqa həsr edilmiş həyat :** Y.V.Çəmənzəminlinin 130 illik yubileyi ilə əlaqədar hazırlanmış metodik vəsait / tərt.ed.: N. Məcidova ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017. - 27s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası - 2017**

## Tərtibçidən:

İstedadlı nasir, ictimaii xadim, milli ədəbiyyatımızda tarixi roman janrının ən qüdrətli yaradıcılarından biri, hekayə ustası, dramaturq, folklor tədqiqatçısı, maraqlı xatirələr müəllifi, pedoqoq, Y.V.Çəmənzəminli XX əsr Azərbaycan bədii fikrimizin yeni səviyyəyə qalxmasında xidmətləri olan sənətkarlardandır. Ədəbiyyatda, ümumiyyətlə incəsənət aləmində uzunmüddətli qəlblərdə qalmaq üçün güclü istedadla yanaşı yazıçıya yüksək mədəniyyət lazımdır. Hekayə ustası A.P. Çexovu dərindən öyrənən Y. Vəzirin hekayələrinin də reallığı, xalq məişətini mədəni şəkildə düzgün və inandırıcı əks etdirməsi, onun yüksək sənətkarlığı və mədiniyyətini göstərir. Azərbaycan xalq məişətini yaxşı bilən, onun qusurlu cəhətlərini ürək ağrısı ilə duyan Yusif Vəziri məişət eybəcərliyi və ailə faciləri daha çox düşündürdüyündən, yazıçının əsərlərini oxuyan hər bir şəxs orada soy-kökümüz, milli varlığımız, mənəviyyatımız və mərasimlərimiz haqqında qiymətli materiallar tapa bilir. Bunun da səbəbi yazıçının güclü mütaliəsi, xalqa bağlı olması idi.

Bu il hələ sağlığında özü haqqında “Mən həyatımın sonuna qədər uğursuz olacağına cocuqluğumun ilk dövründən inanıb, qəlbimdə qəm kitabı daşıdım” deyən sənətkarın anadan olmasından 130 il ötür. Yubiley münasibətilə respublikanın bir çox mədəniyyət müəssisələrində tədbirlərin keçirilməsi nəzərdə tutulur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsi olaraq Yusif Vəzir Çəmənzəminlinin 130 illik yubileyi münasibətilə metodik vəsait hazırlamışdır. “Xalqa həsr edilmiş həyat” adlı bu vəsaitdə kitabxanada Y.Vəzir Çəmənzəminlinin yubileyi münasibətilə keçirilməsi nəzərdə tutulan, onun yaradıcılığının oxuculara tanıtdırılması üçün hazırlanmış kütləvi tədbirlərdən söhbət açılır.

# Həyatı odlar içində keçən sənətkar

Milli ədəbiyyatımızda tarixi roman janrının ən qüdrətli yaradıcılarından biri, hekayə ustası, dramaturq, publisist alim, folklor tədqiqatçısı, maraqlı xatirələr müəllifi və bütün bu cəhətləri ömrü boyu özündə şərəflə daşıyan yazıçı Yusif Vəzir Çəmənzəminli zəngin və mürəkkəb bir həyat yolu keçmişdir. O, 1987-ci il 12 sentyabrda Şuşada yoxsul bir ailədə dünyaya göz açmışdır. Y.Vəzir əvvəlcə mollaxanada, sonra rus-tatar məktəbində, daha sonra isə Şuşa və Bakı realnı məktəblərində oxuyur. Ali təhsilini Kiyev universitetində davam etdirir. Yazıçı 1910-1915-ci illlərdə burada hüquq fakültəsini bitirdikdən sonra bir müddət Saratov və Krımın ədliyyə orqanlarında çalışır.

Xatirələrdən görünür ki, anadan olanda atası Şuşada alverlə məşğul olur. Ordan həyat yoldaşı Əzizə xanıma məktub yazıb oğlunun adını Yusif qoyur. Gənc yaşlarında var-dövlətini, pulunu qonaqlıqlarda xərcləyən atası Mirbaba kişi müflis olduqdan sonra Ağdamda əttar dükanı açır və nüsxəbəndlik edir və Qarabağda məşhur nüsxəbəndlərdən biri kimi ad çıxarır. Məşədi Mirbaba dükan qonşularından özünün mütaliəsi, dünyagörüşü, zəmanəyə düzgün münasibəti ilə fərqlənmiş, Nizami, Füzuli, Firdovsi, Sədi, Hafiz kimi nəhənglərin yaradıcılığını dərindən bilmişdir. Mirbaba kişi Ə. Haqverdiyev, Ə.Ağayev, H.Vəzirov kimi tanınmış ədib və ziyalılarla dostluq edirdi. İlk təhsilini molla məktəbində alan Çəmənzəminli yazdığı "Həyatımın 20 ili", "Həyatım" memuarlarında atasının İran, Türkistan və bəzi Osmanlı torpaqlarını gəzdiyini, fars və türk dillərini mükəmməl bildiyini, ədəbiyyatı, xüsusilə Firdovsi və Füzulini çox sevdiyini də xatırlayır. Onun uşaqlarının təhsili ilə xüsusi maraqlanıb və məşğul olan atası, bu məqsədlə çərəkə və bir fars-türk dillərinn lüğətini yazır.

Ədib haqsızlıq dünyasına güclü nifrətini anasının tərbiyəsi ilə bağlayıb deyirdi: Qışın uzun gecələrində anamın ətrafına toplaşaraq maraqlı nağıllarını, hekayələrini dinlərdik. Xanların zülmü, adamları quşlara yedirmə, şişə çəkib ocaq üstə qoyma həyatın bütün şiddətləri gözlərimizin önündən keçib, körpə ürəyimizi yandırmışdır. Zülmə qarşı bəslədiyim düşmənçiliyi anamdan öyrəndim.

Əvvəl Şuşa realnı, sonralar isə Bakı realnı məktəbində təhsilini alan yazıçı daha yaxşı təhsil almaq üçün Daşkənd gimnaziyasında rus dilini mükəmməl öyrənərək, hətta bu dildə şeirlər yazır.

Bu şeirlərin "Bayram" şeirini ədəbi bədii gecədə oxucuların ifasında dinləyə bilərik.

**Oxucu:** Уж скоро вслед зимы суровой
Весна желанная придет
И нам год жизни нашей новый
Она с собою принесет….

**II Oxucu**: В лолях гул скачек пронесется,
Раздастся плясок дружный шум
И за собою в мир блогодатный
Под говор стройный бойких струн,

Gənc yaşlarında yazdığı *"Şaqqulunun xeyir işi" isə* onun ilk hekayəsidir. Yazıçı daha sonra yazdığı hekayələri ilə *"Hətərən-pətərən"*, *"Sərsəm"* imzası ilə mətbuatda çıxış edir, 1910-1915-ci illərdə Kiyev Universitetinin hüquq fakultəsində təhsilini davam etdirir. İki il sonra burada Müsavat partiyasının sıralarına daxil olmaqla yanaşı, tələbələrin Türk federalist Komitəsinin başqanı seçilir. 1919-cu ildə Türk hökuməti Y.Vəzirə İstanbulda konsul vəzifəsini təklif edir. Vətəndə ədibin yaradıcılığında yer alan "Studentlər" romanında millətçilik ruhunun olması adı ilə Azərbaycan Yazıçılar İttifaqı onu öz sıralarından xaric edir. Maddi-mənəvi sıxıntılar yaşadığından yazıçı Özbəkistanın

Urgənc şəhərinə üz tutur. Buradada o öz rahatlığına qovuşa bilmir. 1937-1938-ci illərdə represiyaya uğrayan məmləkət övladları, say-seçmə elm və mədəniyyət xadimlərinin adları arasında Yusif Vəzirin də adı çəkilir. İstintaqçılar 1940-cı il yanvar ayının 25-də onun həbs olunması qərarını verirlər. İki gün sonra Çəmənzəminli işlədiyi Urgənc Pedoqoji İnstitutunda həbsə alınır. Bakıya gətirilən yazıçının burada 1937-ci ilə qədərki tərcümeyi – halı təftiş edilməyə başlanılır. 1940- cı il fevralın 26-da ədibin ittihamı ilə bağlı qərar qüvvəyə minir.

Qərara əsasən o, 1919-cu ildə ingilis, fransız və türk təşkilatları ilə əlaqədə olması ilə Azərbaycan SSR-nin cinayət Məcəlləsinin 73-72-ci maddəsinin 2-3-cü bəndinə görə ittiham olunur. Lakin son  yazılarından görürük ki, o özünü sona qədər günahkar saymır. Yusif Vəzirin özü haqqında ittihamlardan sonra yazdığı son cümləsi belə olur. "Mənə verilən 3 maddədən ibarət ittihamlar ağ yalandır. Mən özümü günahkar hesab etmirəm."

O gördüklərini, yaşadıqlarını, düşündüklərini, parlaq bədii boyalarla əks etdirən həm rəssam, həm publisist, həmdə etnoqraf, tarixçi kimi tanınmışdır. Yusifin uşaqlıq rəsmləri sanki gələcək yazıçı üçün bir növ hazırlıq mərhələsi olub. Araşdırmalara görə "Şuşa şəhəri və tipləri", "Cəhalət",  "Ər və arvad",  "Məhəllə böyüyü", "XX əsrin modabazı", "Ayağın fiziologiyası", "Dərsə gedən bir uşaq" rəsmləri, H.B.Zərdabinin, İ.S. Turgenevin portretləri  onun gələcək yaradıcılığında xüsusi yer tutur. Yusif Vəzir Çəmənzəminlini hələ sovet dönəmindən əhali ancaq istedadlı yazıçı kimi tanıyırdı. Çünki ictimaiyyətə yalnız onun kitabları çatdırılırdı. Əslində isə Yusif Vəzir Çəmənzəminli həm də görkəmli ədəbiyyatşünas, tarixçi, etnoqraf, təcrübəli hüquqşünas, müəllim, peşəkar tərcüməçi, ictimai-siyasi xadim bir sözlə dövlət adamı olub. Lakin bir çox həmvətənləri kimi yaşadığı dövrün keşməkeşləri onun da həyatından yan keçməyib. Çəmənzəminli də Stalin represiyasının qurbanlarından olub.

## Yaradıcılığı

Çəmənzəminli hələ Şuşa realnı məktəbində oxuyarkən şeir yazıb, karikaturalar çəkməyə başlayır. Müəllimi 1904-cü ildə ona A.P. Çexovu mütaliə etməyi məsləhət görür. Yusif Çexovu mütaliə etməyə başlayır. Oxuduqca Çexovun duzlu-məzəli hekayələri, oradakı kiçik adamların acınacaqlı taleləri gənc tələbəyə pis təsir edir. Çexov ona yaradıcılığında təsir göstərə bilmir.Y.Vəzirə yumoristik ədib kimi təkan verən *“Molla Nəsrəddin”* jurnalı olur. İlk hekayəsi *“Şahqulunun xeyir işi”*- ni Cəlil Məmmədquluzadənin təsiri ilə yazıb Molla Nəsrəddin jurnalına göndərir. Bu jurnal Çəmənzəminlinin cəmi bir fleytonu və bir-iki karikaturasını dərc etdirir. Buna baxmayaraq o Molla Nəsrəddin jurnalından ayrılmır, realnı məktəbdə oxuyarkən tərtib etdiyi gündəliyində o, Molla Nəsrəddindən hərarətlə danışır. Orada yazır ki, bu jurnalın asanlıqla həll yoluna saldığı məsələlər onu da düşündürür. Uşaq tərbiyəsi, ailə münasibəti yazıçının həmin hekayələrində cəlbedici mövzulardan biri hesab edilir. Ədəbiyatımızın görkəmli nümayəndələrindən olan F.Köçərli 1912-1913-cü illərdə Yusif Vəzirə göndərdiyi məktubda onu hekayələrində “məişətimizi ədibanə təhrir” etdiyinə görə yüksək qiymətləndirir. Çünki hekayə və povestlərində ədib məişətimizi dəqiqliklə təsvir edərək, hər surətin öz dünyagörüşünü, xoşbəxtlik haqqında düşüncələrini Azərbaycan mühit və şəratinə xas olaraq canlandırmışdır.

Y.V. Çəmənzəminlinin ilk kitabı 1911-ci ildə nəşr edilib. Bundan sonra ədibin sağlığında 24, 1956-cı ildən bu günə qədər isə cəmi 60-a yaxın kitabı nəşr edilib. Üç cildlik akademik nəşri olan son nəşrdə digərlərindən fərqli olaraq

birinci cilddə müəllifin rus dilində yazdığı hekayələri də, toplanmışdır. 15 dekabr 1936-cı ildə başlayıb, 19 aprel 1937-ci ildə tamamladığı "Qan içində" romanını müəllif özü "İki od arasında adlandırmışdır. Lakin bu adla romanı müstəqillik dövrünə qədər çap etdirmək mümkün olmamışdır. Odur ki, əsəri ilk dəfə çapa hazırlayan görkəmli tənqidçi və ədəbiyyatşünas Ə.Ağayev romanda bir sıra ixtisarlar aparmışdır, onu dövrün siyasi tələblərinə uyğunlaşdırmaq üçün bir növ "təmizləmişdir". Yazıçının əsərinə verdiyi adı da dəyişərək ona "Qan içində" adı vermişdir. Sovet dövründə "Qan içində" adı ilə çap edilən roman yalnız son müstəqillik dövrümüzdə yaradıcısının ona verdiyi adla çap edilməyə başladı.

"Studentlər" romanı isə ilk dəfə müəllifin sağlığında - 1931, 1935, 1936-cı illərdə çap edilmişdir. Əsərin 1968 və 1976-cı il nəşrlərində, "İki od arasında" romanında olduğu kimi siyasi – ideoloji fikirlər baxımdan "təmizləmə" edilmişdi. Bu yeniliklər müəllifin sağlığında nəşr edilən nüsxələrə əsaslandırılmışdır. Müəllifin əsərlərinin kiril əlifbası ilə müxtəlif illərdə nəşrləri kitabxanamızın fondunda qorunub saxlanılır. Bu kitabların sərgisini sizə təqdim edirik.


ОРХАН ВӘЗИРОВ
Атам Јусиф Вәзир Чәмәнзәминли һаггында...


Сон баһар
Ј.В. Чәмәнзәминли




Јусиф Вәзир Чәмәнзәминли
ајрылыг
ахшамы


Јусиф
Вәзир
Чәмәнзәминли


јусиф вәзир чәмәнзәминли
Гызлар булағы

## Yubiley tədbirlərinin keçirilməsi:

Bu il görkəmli ədəbiyyatşünas, tarixçi, etnoqraf, təcrübəli hüquqşünas, müəllim, peşəkar tərcüməçi, ictimai-siyasi xadim bir sözlə dövlət adamı olan Yusif Vəzir Çəmənzəminlinin anadan olmasının 130 ili tamam olur. Yubiley münasibətilə respublikanın bütün mədəniyyət müəssisələrində müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bu münasibətlə F. Köçərli adına Respublika Uşaq Kitabxanasında ilk öncə yubiley sərgiləri təşkil ediləcəkdir. Sərgi başlığı kimi bu nümunələrdən istifadə edə bilərik:

*"Xalqa həsr edilmiş həyat", "Gülümsəyən Yusif Vəzir", "Əli və Nino"nun əsl müəllifi, "Həyatı odlar içində keçən sənətkar", "Gənclərin sevimli yazıçısı","Nəsrimizin görkəmli nümayəndəsi", "Y.V.Çəmənzəminlinin ömür yolu", "Gözəl əsərlərin müəllifi"* və s.

Sərgilərin quruluşunu sizə təqdim edirik.



1. Sərgi başlığı
2.Yusif Vəzir Çəmənzəminlinin portreti
3. Əsərləri
4.Haqqında olan ədəbiyyat
5.Y.V. Çəmənzəminlinin arxivindən (gündəliklərindən) səhifələr

Bakı qəzetinin 1967-ci il 8 dekabr sayında çap edilmiş Yusif Vəzir Çəmənzəminlinin bu portreti də sərgidə yer ala bilər.

Sərgidə müəllifin bu kitablarından istifadə edə bilərik:















## Görkəmli şəxsiyyətlərin Yusif Vəzir Çəmənzəminli haqqında söylədikləri

“Sizin hekayələrin xoşagəlimliliyi ondadır ki, onlar məişətdən götürülübdür, ədibanə təhrir olunubdur və bir də onların yaxşılığına səbəb asan və sadə dil ilə yazılmasıdır.”

**Firidun bəy Köçərli**
*Folklor antologiyasının banisi*

Ədibin bir sənətkar kimi bacarığı onda idi ki, XVIII əsrin xanlıqlar dövrünü, Azərbaycan həyatını dərindən realist qələmlə təsvir edərkən tarixə bu günün gözü ilə baxmış, dövrün fəryad edən ziddiyyətlərini bir sənətkar kimi açmış, tarixi hadisələri və insanları idealizədən qaçırmışdır.

**Kamran Məmmədov**
*Filologiya elmləri doktoru*

Yazıçının “İki od arasında” əsəri ən bitkin romanlarından biri olduğu kimi, həm də tarixi, adət və ənənələri, inam və etiqadları, sınaq və yozumları, çox yaxşı bilən folklorçu, tarixçi, etnoqraf, şərqşünas alimin bütün müşahidə və tədqiqatlarının kiçik həcmli qamusudur. “İki od arasında”əsərində müəllif Qarabağ xanlığını Azərbaycanın rəmzi kimi göstərmişdir.

**Məmmədhüseyn Təhmasib**
*Ədəbiyyatşünas*

**Yazıçının söylədiyi müdrik kəlamlar**

“İnsana bir yaşayış bağışlanmışdır, doyunca yaşamaq lazımdır. Amma bu dar dünyanı elə keçirəsən ki, öləndə arxaya baxıb həsrət çəkməyəsən”

Gənc həyat elə böyük bir qüvvədir ki, mətin qayanı belə yıxır. Gənc olduğumu idrak edən dəqiqələr özümü kainatın hakimi zənn edirəm. İnsan özünün baqi olmadığına inanarmı? Gündə yüz minlərlə ölülər belə görsəm, öləcəyimə qane ola bilmirəm.

Dil birliyi üç-dörd adamın bir dildə yazması ilə olmaz. Dil gərək işlənsin. Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində də belə gözəl, zərif və geni şbir hala gələr ki, hamını heyran qoyar...Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin. Əsl dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içində toplanmaqdadır...”

Sabir filosofdur, mürəbbidir, inqilabçıdır. Hamısında da səmimidir.

**Y.V.Çəmənzəminli**

Bildiyimiz kimi, Yusif Vəzirin çoxlu sayda gündəlikləri olmuşdur. Yazıçı gündəliklərini çox sevirdi. “Dəftəri gülşəni-cavanlıq” adlandırdığı bu gündəliklərə bir dostu, sirdaşı kimi müraciət edirdi: “Ey mənim gündəliyim! Bu dəfə məni sakitləşdir və mənə xeyir-dua ver. Öz səhifələrinlə məni aydınlaşdır ki, mən nələr çəkmişəm və nahaq yerə öz vicdanıma belə əziyyət vermişəm. Nahaq yerə mənim başımın üzərində ildırım çaxır və kədər qəlbimi sarır! Nahaq yerə!” (11 aprel, 1908).

Y. Çəmənzəminli xatirələrini “Bir cavanın dəftəri”adı ilə qələmə almışdır. Xatirələrində onun Kiyevə qədərki gəncliyi əks

olunub. Yazıçının kitab halında xatirələri "Xan" xatirə ədəbiyyatı seriyasında ayrıca 2014-cü ildə nəşr edilmişdir. Sərgi ətrafında oxucularla onun xatirələri haqqında söhbət edə bilərik. Söhbət əsnasında onlara bu xatirələrin bir neçəsini danışa bilərik.

## Yusif Vəzirovun "Təşəkkür" məktubu

Yusif Vəzirin həyatında baş verən maraqlı məqamlardan biri onun Bakı realnı məktəbində oxuyarkən baş vermişdir. Maddi sıxıntı ucbatından təhsilinin yarımçıq qalacağından qorxan Yusif Vəzir təzə tanış olduğu maarifpərvər fikirləri ilə onu özünə bağlayan Bəşir bəy Aşurbəyova müraciət edir. Aşurbəyov özü Yusif Vəzirin ona müraciət etməsinə şərait yaradır. Mənbələrə görə Bəşirbəy Aşurbəyov biləndə ki, milyonçu Hacı İsrafil Aydəmirov Yusif Vəzirə təqaüd verməkdən imtina edib, ona ayda 25 manat təqaüd veməyə hazır olduğunu bildirir. Lakin bu vaxt Mir Yusif dərs verib aldığı 20 manatla özünü dolandırırdı. Ona görədə vicdanına sığışdırmır ki, kömək üçün kiməsə əl açsın. Həmin vaxt imtahanının təxirə salınması nəticəsində elə vəziyyət yaranmışdı ki, təqaüd üçün müraciət etmək lazım idi.Yusifin müraciətinin cavabı olaraq Bəşir bəy ona ayda 25 manat təqaüd



verir. O öz gündəliyinin 8 may 1908-ci il tarixli qeydlərində Bəşir bəyin xeyirxahlığını **"Ümid işığı"** başlığı altında qələmə alır. "Artıq iki gündür ki, buraxılmışıq, imtahanlar avqusta keçirilib. İmtahanların vaxtının uzadılması mənim üçün böyük zərbə oldu. Fikirləşirəm "Hara gedim ki, vaxtımı yalnız dərslərə sərf edim? Bu sualıma heç bir yerdə qənaətbəxş cavab tapa bilmirəm. Doğrudan axı hara gedim? Aşqabadda hava istidir, həm də bir dəstə bekarın arasında həyat da azad deyil."

Yusif Vəzir Çəmənzəminli həmdə istedadlı rəssam idi, yaradıcılığı boyu o, gözəl şəkillər çəkmişdi. Onun uşaqlıq rəsmləri sanki gələcək yazıçı üçün yazıçılığa hazırlıq mərhələsi idi.

Araşdırmaçı Kamran Məmmədov ədibin əsərlərində realizmin və tipyaratma ustalığının yüksəkliyinin olmasının rəsm əsərləri ilə bağlı olduğunu qeyd edir. "Şuşa şəhəri və tipləri", "Cəhalət", "Ər və arvad", "Məhəllə böyüyü", "XX əsrin modabazı", "Ayağın fiziologiyası", "Dərsə gedən bir uşaq" rəsmləri, H.Zərdabinin, İ.Turgenevin, M.Lermontovun portretləri və adları bu siyahıda olmayan əsərləri onun yaradıcılıq tərcümeyi-halında xüsusi yer tutur. Həvəskar rəssam kimi "Fokusnik" məcmuəsindəki şəkilləri onun müşahidələrinin nəticəsi kimi daha maraqlıdır. Çəkdiyi şəkillərin bəziləri onun arxivində saxlanılır.

1904-cü ildə Y.V. Çəmənzəminli Şuşa realnı məktəbində oxuyarkən, əmisi oğlu Mirhəsən Vəzirovla birgə "Fokusnik" adlı aylıq karikaturalı məcmuə buraxmışlar. Məcmuədə mətnləri əsasən Mirhəsən yazmış, şəkilləri Yusif çəkmişdir.

Kitabxanada yubileylə bağlı yuxarı sinif şagirdləri ilə yazıçının üç cildli 2005-ci ildə çapdan çıxmış "Əsərləri"nin müzakirəsini keçirə bilərik. Əsərlərində xalq nağıllarının ruhunu, Azərbaycan dilinin sehrini qoruyub saxladığından, müzakirə oxucularda milli ruhun daha da yüksəlməsinə kömək edəcək.

Müzakirədən əlavə "Qan içində" romanının içmalını da keçirə bilərik. Qan İçində romanı özünün strukturu, süjet xəttinin çoxşaxəliliyi, kompazisiyasının mükəmməlliyi ilə oxucunu özünə cəlb edir. Roman Azərbaycanın tariximiz üçün maraqlı və zəngin bir dövründən - XIX əsrin II yarısından bəhs edir. Bu illərdə Azərbaycanda ayrı-ayrı xanlıqlar arasında münasibətlərin soyuqluğu, bunun nəticəsi kimi Rusiya və İran arasında Azərbaycana sahib olmaq üçün apardıqları mübarizələrin motivləri verilmişdir.Tarixin olduğu kimi real canlandırılması

sənətkarlıq etibarı ilə yüksək keyfiyyətlidir. İcmaldan əvvəl yuxarısinif şagirdlərini Qan İçində ( İki od arasında) romanı haqqında məlumatlandırırıq.Kitabxanaçı oxuculara əsərin məzmunundan bəhs edən suallar verə bilər.

1. Yazıçı bu əsəri neçənci ildə qələmə alıb?
   1937
2. Qan içində romanı neçənci ildə işıq üzü görüb?
   1967
3. Əsərin başqa adı necədir?
   "İki od arasında"
4. Əsər hansı mövzuda yazılmışdır?
   Tarixi
5. İki od arasında əsəri hansı xanlığın tarixindən bəhs edir?
   Qarabağ
6. Romanın əsas qəhrəmanlarından biri Vaqifi müəllif vətənin ecazkarlığını tərənnüm edən şairliklə yanaşı həmdə hansı obrazda vermişdir?
   Diplomat, tarixi şəxsiyyət kimi.
7. Vaqif əsərdə hansı xanlığı təmsil edir?
   Qarabağ xanlığını
8. Y.V. Çəmənzəminli əsərdə Vaqif obrazını oxucusuna necə təqdim etmişdir?

Əsərdə Vaqif şeir sənət adamı kimi nə qədər xəlqidirsə, gözəlliyə, xeyirxahlığa nə qədər həssasdırsa, xanlıqdakı vəzifəsinə görədə bir o qədər məsuliyyətli və tədbirlidir.

Kitabxanada yubilyarın həyat və yaradıcılığını təbliğ etmək məqsədi ilə oxucular üçün anket sualları da hazırlaya bilərik. Sorğunun keçirilməsi kitabxanaya gələn oxucuların yazıçının həyat və yaradıcılığı haqqında bir sıra biliklər əldə etməsinə kömək edəcək. Anket sorğusunu sizə təqdim edirik:

1. Yusif Vəzir Çəmənzəminli harada anadan olmuşdur?

☺ Bakıda

☺ **Şuşada**

2. Yusif Vəzir Çəmənzəminli neçənci ildə anadan olmuşdur?

☺ **1887**

☺ 1841

3. Y.V.Çəmənzəminlinin ilk hekayəsi necə adlanır?

☺ Qurbanəlibəy

☺ **Şahqulunun xeyir işi**

4.Y.Çəmənzəminli "Şahqulunun xeyir işi" adlı ilk hekayəsini hansı yazıçının hekayəsinin təsiri ilə yazıb?

☺ Əbdürrəhimbəy Haqverdiyev "Ata və oğul hekayəsi"

☺**Cəlil Məmmədquluzadə Qurbanəlibəy hekayəsi əsasında**

5. 1909-cu ildə ali təhsil almaq üçün yazıçı Rusiyanın hansı şəhərinə gedir?

☺ Nijni Novqorod

☺ **Peterburq**

6. Yusif Vəzir Çəmənzəminlinin romanlarının adları yazılan sıra hansıdır?

☺ Buz heykəl; Fəryad; Nişan üzüyü, Toy.

☺ **Qan içində; Studentlər; Qızlar bulağı; Əli və Nino**

7. Müəllifin tarixi romanı hansıdır?

☺ Qızlar bulağı

**☺ Qan içində**

8. Müəllifin hekayələri nə üçün sevilirdi, oxunurdu?

☺**Daha çox mövcud həyatın müxtəlif problemlərini, gündəlik ailə məişət qayğılarını əks etdirdiyi üçün.**

☺ Zəngin dili, sujet xətti olduğu uçün

9. Bu məlumatlardan hansı Yusif Vəzir Çəmənzəminlinin diplomatik fəaliyyəti haqqındadır?

☺ Ali məclisin deputatı olub

☺ **Azərbaycanın Türkiyəyə göndərilmiş səfiri olub**

10. Yusif Vəzir Çəmənzəminlinin xatirələri necə adlanır?

☺ **Bir Cavanın dəftəri**

☺ Gündəliklər

## Kitabxanada ədəbi-bədii gecənin təşkili

Yusif Vəzir Çəmənzəminlinin anadan olmasının 130 illik yubileyi münasibətilə kitabxanada hazırlanan ən geniş tədbirlərdən biri də, ədəbi-bədii gecənin təşkilidir. Ədəbi-bədii gecələr yubilyarın tanıdılmasında daha yaxşı vasitədir. Ədəbi-bədii gecədə Yusif Vəzirin həyat və yaradıcılığından bəhs edən slayd, əsərləri əsasında hazırlanmış səhnələr göstərilir, haqqında deyilmiş müxtəlif fikirlər səsləndirilir.

Yusif Vəzir Çəmənzəminlinin 130 illik yubileyi münsibətilə hazırladığımız tədbirdə "Nəsrimizin xalq üçün yanan

nümayəndəsi” adlı slayd nümayişindən sonra aparıcılar səhnəyə daxil olurlar.

**Aparıcı:** Salam əziz qonaqlar, xoş gördük sizi. Bu il istedadlı nasir, milli ədəbiyyatımızda özünün dəst-xətti olan, tarixi roman janrının ən qüdrətli yaradıcılarından biri, publisist, alim, maraqlı xatirələr müəllifi, pedoqoq Yusif Vəzir Çəmənzəminlinin 130 illik yubileyi qeyd edilir. Onun xalqımızın mənşəyini, ictimaii-siyasi həyatını, milli varlığını, etnoqrafik xüsusiyyətlərlə göstərən zəngin tarixi romanları xüsusi ilə maraqlıdır.

**Aparıcı:** Yusif Vəzir Çəmənzəminli həmdə alim, dəyərli elmi əsərlər müəllifi idi. Ədəbi-bədii irsi xalq yaradıcılığı ilə sıx bağlı olan Çəmənzəminlinin elmi fəaliyyətində folklorşünaslıq mühüm yer tutur.

**Aparıcı:** Yusif 19 yaşında olanda atası xəstə yatır. Xəstəliklə mübarizə apara bilməyən ata gözlərini əbədi yumduqdan sonra ailə yükü 19 yaşlı Yusifin üstündə qalır. İmkansızlıq, maddi cəhətdən çətinlik üzündən Ağdamdakı əttar dükanını satan Yusif, çox keçmədən özü yatalaq xəstəliyinə tutulur. Anası Seyid Əziz xanımın fikir içində qovrulduğu çətin bir məqamda həyatlərində yaşayan üç qardaş bu ailənin dayağı olur. Qardaşlar Cənubi Azərbaycanın Çəmənzəmin kəndindən Azərbaycana gələnlərdən olur. Hansıki atası Məşədi Mirbaba vaxtı ilə həyətində onlara sığınacaq verib, himayəsinə almışdır. İndi isə onlar Yusifin sağalması üçün öz əllərindən gələni edirdilər.

**Aparıcı:** Yaxınlarının, doğmalarının etmədiyi köməyi görən Yusif bir gün anasını çağırıb deyir ki, əgər sağalıb yaxşı olsam mən gələcəkdə Çəmənzəminli adını özümə təxəllüs götürəcəyəm. Ümidsiz xəstə sağalır. Yusif əhdinə sadiq qalır.

**Aparıcı:**Y.V.Çəmənzəminlinin romanlarında güclü tarixilik də mövcuddur. Bu baxımdan “İki od arasında” romanı xüsusi ilə maraqlıdır. Əsərdə təsvir edilən hadisələrin mərkəzində Qarabağ xanlığı, XVIII əsrin sonu XIX əsrin əvvəllərində onun ictimaii-

siyasi, iqtisadi və mədəni həyatı ilə bağlı məsələlər dursada, tarix göstərir ki, Qarabağ xanlığı XVIII əsrin çevik bir siyasət yürüdərək öz müstəqilliyini qoruyub saxlamağa çalışmış və bütün Qafqaz xanlıqlarının, o cümlədən Azərbaycan xanlıqlarının hamısının varlığı və həyatı məsələsi ilə əlaqədar olmuşdur. O elə sənətkarlardandır ki, qismətinə üç dövrdə yaşamaq düşmüşdür. - Çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və Sovetlər imperiyası.

**Aparıcı:** Yusif Vəzirovun ailəsinin daşıdığı familiya XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu saray əyanlarından biri olan Mirzə Əliməmmədlə ələqadardır. İran şahı Qarabağın paytaxtı Şuşanı zəbt etdikdən sonra Türkiyəyə səfir təyin olunan Əliməmməd ağanı da dustaq edir. Dustaqxanada növbə ilə Əliməmməd ağada qətlə yetirilir. Yusif Vəzir Çəmənzəminli yazdığı "İki od arasında" romanında həmin Mirzə Əliməmməd ağanın obrazını yaradır. Söhbət Y.V.Çəmənzəminlinin İki od arasında kı Mirzə Əliməmməd obrazından düşmüşkən əsərdən Vaqif və Əliməmməd obrazlarından səhnələşdirilmiş bir parçaya baxaq.

*Səhnə əsərə uyğun dekorasiyalarla bəzədilir. İfaçılar əsərə uyğun geyimlərdə səhnəyə daxil olurlar. İki-üç gündən bəri Vaqif evdən çıxmayıb rəsmi məktublar yazır. Vaqif elə məşğul idi ki, Mirzə Əliməmməd ağanın içəri girməsini belə görmür. Mirzə Əliməmmədağa (içəri girir)*

**Mirzə Əliməmmədağa:** Salaməleykum

*Vaqif başını qaldırıb gözlüyün üzərindən Əliməmmədin salamına cavab verir. Mirzə Əliməmməd əlini Vaqifin çiyninə qoyub*

**Mirzə Əliməmməd**: Gəldim xudafizləşməyə!

**Vaqif heyrətlə:** Bu tezliklə? Axı sabah gedəcəkdin?

**Mirzə Əliməmməd:** Xeyr, bu gün hazır olduq, vaxtı itirmək lazım döyül.

**Vaqif:** **-**Yaxşı məsləhət sənindir deyib, Mirzə Əlimməmmədə bir məktub uzadır.

- Buyur, Mirzə! Çalışarsan özünü İstanbula yetirərsən Sultan həzrətlərinə məsələni ətraflı ərz eliyərsən; deyərsən ki, bizi iki od arasından qurtaracaq yeganə çarə Osmanlı himayəsidir. Tezliklə əsgər göndərməsələr Axta xan bizi həlak edəcək və ümməti - islam qan dəryasına boğulacaq.
- *Vaqif susdu. Mirzə Əliməmməd məktubu alıb dedi:*

**M.Əliməmmədağa:** Axund, arxayın ol əliboş qayıtmaram

Səbr eylə, aqibət mey olur qan dedikləri
Sübh visal olur şəbi - hicran dedikləri!...

*Mirzə Əliməmməd ağa istər şeirdən, istər Vaqif kimi dostundan ayrıldığına kədərlənib, doluxsunur. Vaqif ilə qucaqlaşıb ayrılır.*

*İki od arasında romanından ikinci səhnə*

Səhnədə çoban və onun istəkli köpəyi görünür: Çoban köpəyinə onu qoruduğu üçün göz dəyməsin deyə dua yazdırmaq üçün şəhərdə bir şəhərliyə rast gəlir. Şəhərli onun avamlığından istifadə edib qəssabı, qəssab isə Vaqifi işarə verir. Vaqif çobanın işini anlayıb özünü sındırmır və ona belə bir dua yazır:

Gözüm düşdü ətinə,
Dua yazdım itinə,
Bu sirri kim açsa,
Bu çobanın...

Vaqif bu şeri yazdığı kağızı qatlayıb çobana verir. Çoban kağızı itin boğazından asır. Bir gün İbrahim xan ovda istirahət edir. O, kəndlinin həmin iti görünür. İtin boğazından asılan dua istirahət edən xanın diqqətini cəlb edir. Xan oxuyub duanı həm qəzəblənir, həm də için-için gülür. Tez eşikağasını çağırır.

**İbrahim xan:** Eşikağası çobanı çağır.

*Çoban isə Vaqifi ələ verir. Vaqif xanın qəzəbli sözlərini dinlədikdən sonra sözə başlayır:*

**Vaqif:** Yüz iyrimi dörd min peyğəmbər keçdi
Dünyadan kim getdi dərdi-vərəmsiz
Hanı Nuşirəvan təxti Süleyman?
Dövran belə keçdi, Cəmşidi sənsiz
Çox güvənmə qızılım var, pulum var.
Puç dünyada ulusum var, elim var.
Heç demirsən, ayrılıq var, ölüm var.
Neçə min söhbətlər qılıblar sənsiz,
Mətlubum istərəm şahi heydərdən,
Sahibi Zülfüqar, şahi Qənbərdən,
Biçarə Vaqifi salma nəzərdən,
Qul xətasız olmaz, ağa kərəmsiz

*Vaqifin şairlik istedadı onu xanın zülmündən xilas edir. İştirakçılar alqış sədaları altında səhnəni tərk edirlər.*

## Ədəbiyyat siyahısı:

***Əsərləri***

***Kitablarda***

Əsərləri : 3 cilddə. I cild : Hekayələr. - Bakı : Avrasiya Press, 2005. - 360 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Əsərləri : 3 cilddə. II cild.– Bakı : Avrasiya Press, 2005. - 664 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Əsərləri : 3 cilddə III cild. - Bakı : Avrasiya Press, 2005. - 440 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2004. - 472 s. - (Azərbaycan Ədəbiyyatı).

Bir cavanın dəftəri. - Bakı : "XAN" nəşriyyatı, 2014. - 120 s. - ("XAN" Xatirə Ədəbiyyatı ; IV kitab).

"Biz Kimik" : məqalələr. - Bakı : Nurlan, 2004. - 136 s.

Əli və Nino : roman / Azərbaycan Milli Elmlər Akademiyası. Folklor İnstitutu. - Bakı : Səda, 2004. - 236 s.

Studentlər. - Bakı : Avrasiya Press, 2006. - 408 s.

***Kitablarda***

Cənnətin qəbzi ; Ağ buxaqda qara xal ; Qumarbazın arvadı : hekayələr // Azərbaycan nəsri antologiyası. 5 cilddə. - Bakı : Şərq-Qərb, 2006. - **C. 2**. - S. 308-340.

Əziz : hekayə // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2005. - **C. 3**. - S. 51-52.

Milli və mədəni işlərimiz : məqalə // Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. - Bakı : Elm, 2003. - S. 238-245.

Şaqqulunun xeyir işi ; Müsəlman arvadının sərgüzəşti ; Cənnətin qəbzi : hekayələr // XIX-XX əsr Azərbaycan Ədəbiyyatı (Nəsr). – Bakı: Nurlar, 2012. - S. 250-283.

***Dövri mətbuatda***

Son bahar : hekayə // Savalan. - 2015. - 13-15 yanvar. - **№ 2**. - S. 3.

***Elektron resurslar***

Seçilmiş əsərləri [Elektron resurs] : Poeziya ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. ; 12 sm. - (Nizami layihəsi).

Qan içində [səs yazısı]. - Bakı : "Avrasiya" Fondunun maliyyə dəstəyilə Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin Bakı Tədris Müəssisəsinin Səsyazma studiyası, 2004. - 6 ak. - (Danışan kitabxana silsiləsindən).

***Haqqında kitablarda***

**Axundova M.** Yusif Vəzir Çəmənzəminli. - Bakı : Yazıçı, 1981. - 108, [1] s.

**Əhmədov B.** Yusif Vəzir Çəmənzəminli // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Apostrof, 2010. - **C. 2**. - S. 176-184.

**Əlioğlu M.** Bədii nəsrimizdə tarixi roman // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 496-534.

**Əlioğlu M.** Klassik nəsrimizin bəzi ənənələri // Darıxan adamlar. 2 cilddə. I c. - Bakı : Təhsil, 2009. - S. 284-309. - İlk dəfə "Ədəbiyyat və incəsənət" qəzetinin 1967-ci il 12 dekabr tarixli nömrəsində dərc edilmişdir.

**Kənan A.** Repressiyanın sonuncu qurbanlarından biri : Yusif Vəzir Çəmənzəminli // XX əsrdə repressiyaya məruz qalanlar. - Bakı. : Azərnəşr, 2011. - S. 117-128.

**Məmmədov K.** Yusif Vəzir Çəmənzəminli : Həyatı və yaradıcılıq yolu. - Bakı : Elm, 1981. - 263 s.

**Məmmədov K.** Yusif Vəzir Çəmənzəminli : Məşələ dönmüş ömür. - Bakı : Azərnəşr, 1987. - 269, [4] s.

**Təhmasib M.** Ədib-alim - Yusif Vəzir Çəmənzəminli haqqında // Məqalələr. - Bakı : Elm, 2005. - IV fəsil = Yazıçı və folklor. - S. 140-147.

**Vəzirov O.** Atam Yusif Vəzir Çəmənzəminli haqqında. - Bakı : Azərnəşr, 1997. - 120 s.

**Vəzirova L.** Yusif Vəzir Çəmənzəminlinin publisistikası ; Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu. - Bakı : Nərgiz, 2003. - 180 s.

**Yusif V. Ç.** // Müasir Azərbaycan ədəbiyyatı : dərslik : II C. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - S. 321-324.

***Dövri mətbuatda***

**Aliyə.** Dustaq qəbiristanlığının qərib sakini  : Yusif Vəzir – 122 // Mədəniyyət. - 2009. - 7 oktyabr. - № 72. - S. 12.

**Anılanlar danıla bilməz** : "Əli və Nino" romanının müəllifləri haqqında // Ədəbiyyat qəzeti. - 2010. - 10 dekabr. - № 48. - S. 3.

**Əliyeva İ.** Həyatı odlar içində keçib : repressiya // Azərbaycan. - 2012. - 12 sentyabr. - № 203. - S. 10. ; 11 sentyabr. - № 202. - S.11.

**Gəncəli M.** Yusif Vəzir Çəmənzəminli Əhmədbəy Ağaoğluna niyə müraciət etmişdi // Ədəbiyyat qəzeti. - 2016. - 19 noyabr. - № 43. - S. 21.

**Hümmətli Ş.** Yeni yazarlar nəyi bilməlidir : Yusif Vəzir Çəmənzəminlinin fəaliyyəti haqqında // Azərbaycan. - 2013. - № 3. - S. 178-1183. - Biblioqr. - S. 182-183.

**Hüseynbəyli E.** Yenə iki od arasında : yazıçı, tədqiqatçı və fikir adamı Yusif Vəzir Çəmənzəminlinin xatirəsinə ehtiramla : səkkizinci Qarabağnamə : nəsr // Azərbaycan. - 2016. - № 9. - S. 30-83. ; № 10. - S.75-144.

**Hüseynoğlu T.** Əsərin adına baxan kimi bilinirdi ki, odun biri İrandırsa, digəri Rusiyadır : [professor Tofiq Hüseynoğlu araşdırmaçısı olduğu Yusif Vəzir Çəmənzəminlinin həyat və yaradıcılığı haqqında müsahibəsi // Kaspi. - 2017. - 1 aprel. - № 55. - S. 12-13.

**Kamal R.** Gülümsəyən Yusif Vəzir : Azərbaycan dövlət xadimi və yazıçısı, Yusif Vəzir Çəmənzəminli haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 25 aprel. - № 24/25. - S. 25.

**Kamal R.** Yusif Vəzirin vida dəftəri// Ədəbiyyat qəzeti. - 2016. - 29 oktyabr. - № 40. - S. 7.

**Qurbanqızı Z.** "Əli və Nino" nun əsl müəllifi kimdir? // Respublika. - 2010. - 9 dekabr. - № 268(226). - S. 7.

**Məhərrəmova T.** "Əli və Nino" ekrana vəsiqə alacaq // Kaspi. - 2012. - 12 yanvar. - № 226. - S. 12.

**Nağısoylu M.** Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri haqqında dəyərli araşdırma : Şəlalə Hümmətlinin "Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri" adlı kitabına rəy // Ədəbiyyat qəzeti. - 2015. - 6 iyun. **- № 36/37. - S. 23.**

**Tehran, Ə.** Təzə faktlar işığında : Pənah Xəlilovun "Əli və Nino" problemləri" (Bakı: 2000) kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2010. - 10 dekabr. - № 48. - S. 3. - Məqalə ilk dəfə "Ədəbiyyat qəzeti"nin 2001-ci il 99 fevral tarixli nömrəsində dərc edilmilşdir.

**Xalqa həsr edilmiş həyat**

**( metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 20
Çapa imzalanmışdır: 05.08.2017
Tirajı:100
Pulsuz